# Həqiqətən Allah qiyamət günü ümmətimdən bir adamı məxluqatın önünə çıxaracaq

Abdullah bin Amr bin Asdan (Allah ondan və atasından razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: Həqiqətən Allah qiyamət günü ümmətimdən bir adamı məxluqatın önünə çıxaracaq və onun üçün qarşısına doxsan doqquz kitab sərəcək. Hər kitab gözün gördüyü son həddə qədər olan məsafədə olacaq. Allah buyuracaq: "Bunlardan hər hansı bir şeyi inkar edirsənmi? Əməlləri yazan nəzarətçi mələklərim sənə zülm etdilərmi? Adam deyəcək: Xeyr, ey Rəbbim! Allah buyuracaq: Sənin üzrlü səbəbin varmı? Adam: Xeyr, ey Rəbbim!- deyə cavab verəcək. Allah buyuracaq: Əksinə, sənin üçün dərgahımızda bir savab vardır. Buna görə də bu gün sənə zülm edilməyəcək." Bu zaman, içində "əşhədu əllə iləhə illallah və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluhu" olan kağız parçası gətiriləcək. Allah buyuracaq: Bunların tərəzidə çəkildiyi yerdə hazır ol. Adam deyəcək: Ey Rəbbim, bu kağız parçasının doxsan doqquz kitabın yanında nə dəyəri var? Allah buyuracaq: "Bu gün sənə zülm edilməz". Kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq və kitablar tərəzidə yüngül, kağız parçası isə ağır gələcək. Uca Allahın adıyla yanaşı heç bir şey ağır gəlməz.

[Səhih] [Ət-Tirmizi və İbnu Məcə rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah Qiyamət günü ümmətindən bir adamı seçərək məxluqatın önünə çıxaracaq və hesaba çəkəcək. Sonra bu insanın qarşısına, dünyada etdiyi pis əməllərin səhifələrindən ibarət olan doxsan doqquz kitab təqdim ediləcək. Hər kitab da, gözün gördüyü son həddə qədər olan məsafədə olacaq. Sonra izzət və cəlal sahibi Allah bu kişiyə deyəcək: Bu kitablarda yazılanlardan hər hansı bir şeyi inkar edirsənmi? Əməlləri yazan nəzarətçi mələklərim sənə zülm etdilərmi? Kişi deyəcək: Xeyr, ey Rəbbim İzzət və Cəlal sahibi olan Allah deyəcək: Dünyada etdiyin əməlləri səhv və ya xəta və ya cəhalət kimi üzrlü edəcək səbəbin varmı? Kişi deyəcək: Xeyr, ey Rəbbim, mənim heç bir üzrlü səbəbim yoxdur. İzzət və Cəlal sahibi olan Allah buyuracaq: "Əksinə, sənin üçün dərgahımızda bir savab vardır. Buna görə də bu gün sənə zülm edilməyəcək." Bu zaman, içində "əşhədu əllə iləhə illallah və əşhədu ənnə Muhəmmədən abduhu və rəsuluhu" yazılmış kağız parçası çıxarılacaq. İzzət və Cəlal sahibi olan Allah buyuracaq: Bunların tərəzidə çəkildiyi yerdə hazır ol. Adam təəccüblə deyəcək: Ey Rəbbim, bu kağız parçasının bu qədər kitabın yanında nə dəyəri var? Allah buyuracaq: "Bu gün sənə zülm edilməyəcək." Kitablar tərəzinin bir gözünə, kağız parçası isə digər gözünə qoyulacaq. Kitablar tərəzidə yüngül, kağız parçası isə ağır gələcək və Allah onu bağışlayacaq.